## Vahid Fərəcli - 70

# ÖMÜR YOLU DAVAM EDİR



Cəmiyyət üçün, insanlıq naminə həyatını sərf edənlərin ömür yolu haqqında danışmaq o qədər də asan deyil. Çünki bu yolun mürəkkəbliyi, görünən və görünməyən tərəfləri nə qədər ali məqsəddən, sağlam məramdan keçirsə, bir o qədər də hisslərdən, həyəcanlardan keçir.

İnsan doğulub böyüyür. Yaşamaq üçün nəsillərdən gələn təcrübəni əxz eləyir. Həyatına rənglər qatır. Əgər onun varlığına, təbiətinə ali duyğular hakim olursa, dünyanı daha yaşarı etmək üçün öz borcunu əsirgəmir.

Bu düşüncələr yazıya səbəbsiz gəlmir. Ömür yolunu Azərbaycan üçün, mənsub olduğu xalqın taleyi üçün həsr etmiş Vahid Fərəclinin haqqında danışanda istər-istəməz düşüncələrimiz qanadlanır. Çünki gözlərimizin önündə bir həyat romanı canlanır. Onun işgüzar, təşəbbüskar ədəbi qəhrəmanı gələcək nəsillər üçün də örnək ola bilər.

Vahid Fərəclinin yetmiş yaşı tamam olur. O 1952-ci ildə Ağsu rayonunun Ərəbuşağı kəndində, ziyalı ailəsində dünyaya gəlib.

Deyirlər ki, göz məsafədən qorxur, ayaq isə mərdliyini əsirgəmir. Vahid Fərəcli özü daha yaxşı deyir:"Gəncliyimdə nə vaxtsa 70 il yaşayacağımı, bir sözlə, ömrün daha yuxarı hansı pilləsində olacağımı asanlıqla təsəvvür etmirdim. Düşünürdüm ki, insan bu illəri necə yaşaya bilər?!". Bəli, həqiqətən insan heç özünün xəbəri olmadan sanki ömür yolunu keçirvə həyatın daha yuxarı pillələrinə çatır.

Əlbəttə, ömürdən danışmaq, özü də yetmiş illik ömürdən danışmaq sadə sözlərlə adama çox asan gəlir. Ancaq ömrün zəhmətdən keçdiyini, çətinliklərə dözümdən keçdiyini düşünəndə bunun nə demək olduğunu daha yaxşı anlayırsan.

Vahid Fərəcli orta məktəbi Ağsu şəhərində bitirib.

Ulu öndərimiz Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra mənəvi mühit çox dəyişdi. Xüsusilə Azərbaycanın iqtisadi inkişafı üçün mütəxəssislərin hazırlanmasına diqqət artırıldı. Elə həmin dövrdə Vahid Fərəcli o vaxtkı Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Kənd Təsərrüfatı Akademiyası)- hazırlıq kursuna daxil olur. Uğurla hazırlıq kursunu keçdikdən sona baytarlıq fakültəsinin tələbəsi olmaq haqqını qazanır. O, 1976-cı ildə ali təhsilini yüksək qiymətlərlə başa vurur. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda hərbi xidmət keçir, leytenant rütbəsi alır.

Vahid Fərəcli gəncliyinin həmin qaynar çağlarında doğma elobaya qayıtmaq, rayonda mütəxəssis kimi çalışmaq istəyini gerçəkləşdirir. Ağsu rayonunun "Özbəkistan" kolxozunda iki il baş baytar həkimi vəzifəsində çalışır. Onun yaxşı işinə görə adı rayon fəallarının yığıncağında tez-tez çəkilir. İşgüzarlığı, təşəbbüskarlığı təqdir olunur. Çünki Vahid Fərəcli yaradıcı əməyin nə demək olduğunu yaxşı bilir. Əməli fəaliyyətində də elmin nailiyyətlərindən uğurla faydalanırdı. Onun işə can yandırmasını, vəzifəsinə məsuliyyətlə yanaşmasını görən rayon rəhbərliyi "İlxıçı" baytarlıq müalicəxanasının müdiri vəzifəsinə təyin edir. Bir neçə il bu vəzifədə uğurla çalışır.

Həmin dövrdə Vahid Fərəclinin adı respublikanın fəal təşəbbüskar gəncləri sırasında tez-tez çəkilir. Və nazir Yunis Rzayev onun daha yuxarı vəzifəyə irəli çəkilməsi üçün yanına dəvət edir. Beləliklə, o, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinə köçürmə yolu ilə işə dəyişdirilir. Burada baytarlıq şöbəsində çalışmalı olur. 1981-86-cı illərdə həmin şöbənin böyük baytar həkimi, daha sonra aparıcı baytar həkimi vəzifələrini uğurla daşıyır.

Respublika Aqrar Sənaye Komitəsi yarandıqdan sonrayenə onu köçürmə yolu ilə komitənin müvafiq sahələrində işə dəvət edirlər. Yenə uğurla baş baytar həkimi vəzifəsində çalışmalı olur. Azərbaycan müstəqillik qazandıqdan sonra da Vahid Fərəcli bacarıqlı mütəxəssis kimi diqqətdən kənarda qalmır. Azərbaycan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyində yardımçı təsərrüfatlar şöbəsində Baş baytar həkimi olur. 1992-93-cü illərdə isə həmin nazirliyin heyvandarlıq məhsullarının emalı baş idarəsinin rəis müavini vəzifəsində çalışır. Sonrakı illərdə də ona məsul vəzifələr həvalə edilir. 1997-2000-ci illərdə Nazirlər Kabineti yanında Dövlət Baytarlıq Komitəsinin epizootiziya əlehinə respublika ekspedisiyasında baytar həkimi, sonra isə aparıcı baytar həkimi vəzifələrində çalışır.

Baytarlıq Komitəsi ləğv edildikdən sonra 2000-ci ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin "Brüsellioz və Vərəmə" qarşı respublika ekspedisiyasında 10.10.2007-ci ilə kimi aparıcı baytar həkimi vəzifəsində işləmişdir. Onu da qeyd etmək lazımdır ki, Vahid Fərəcli əmək fəaliyyətində həmişə ulu öndərimiz Heydər Əliyevin müstəsna diqqət və qayğısını hiss etmişdir. O, Yeni Azərbaycan Partiyasının üzvüdür. 4 oğul atasıdır. Övladları Yeni Azərbaycan Partiyasının Gənclər Təşkilatının üzvləridir.

Vahid Fərəcli 2007-ci ilə kimi "Brüselioz və Vərəmə" qarşı respublika ekspedisiyasında bu xəstəliklərin respublikada yayılmasına qarşı peşəkar mütəxəssis kimi fədakarlıqla mübarizə aparmışdır. O yaxşı bilirdi ki, bu xəstəliklər insanlara da yoluxa bilər və onlarda çox ağır fəsadlar törədər. O, Gədəbəy, Samux, Şamaxı, Sabirabad, Ağdam, Ağsu, Kürdəmir, Göyçay, Lerik, Cəlilabad, Xaçmaz, salyan və s. rayonlarda üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişdir. Xəstəliklərə qarşı mübarizədə onun xidmətləri danılmaz idi.

Vahid Fərəcli yenə də biliyini, təcrübəsini gənclərdən əsirgəmir. Bu yolda o hətta öz sağlamlığını da itirmiş, ikinci qrup əlil olmuşdur. 2016-cı ildə o, "Əmək veteranı" adını almışdır.

Vahid Fərəcli respublikanın ictimai həyatında yaxında iştirak edir. BMT-nin və Avropa şurasının işgəncələrə qarşı mübarizə Azərbaycan komitəsinin sədr müavini, Respublika Ağsaqqallar Şurasının üzvü və Nərimanov Rayon Təşkilatının sədr müavini və bir sıra ictimai işlərdə də yaxından iştirak edir.

Oğlu Vurğun Fərəcli Neft Şirkətinin Hərbiləşdirilmiş Təhlükəsizlik İdarəsinin komandasında rəis müavini, "Kapitan" rütbəsində fəaliyyət göstərmiş, 2016-cı ildə qəflətən dünyasını dəyişmişdir. Onun iki azyaşlı övladı da indi Vahid Fərəclinin himayəsindədir.

V.Fərəcli 20 ilə yaxın dövlət qulluqçusu olmuşdur. Qarşıdakı noyabr ayında 70 illik yubileyi tamam olacaq.

Həyatımızın daha sağlam, cəmiyyətimizin daha firavan olması üçün Vahid Fərəcli ömür sərf etmişdir. Gələcək nəsillərə örnək olacaq bir yol keçmişdir.

Onun dəyərli həyatı tanıyanlara yaxşı məlumdur.

Düşünmək olar ki, Vahid Fərəcli kimi xalqını sevən, həyatını vətənə həsr etmiş insanlara bundan sonra da xüsusi diqqət və qayğı göstəriləcəkdir.

"Vahid Fərəcli - 70". Adətən bu qrif altında ömrün ən təntənəli yubileyi keçirilir. Gərək Vahid Fərəclini tanıyanlar, fəaliyyət göstərdikləri sahənin səlahiyyətli şəxsləri də onu unutmasınlar, fəaliyyətini dəyərincə qiymətləndirmək təşəbbüsündə olsunlar. Ömür yolu davam edir. Yaşayarıq, görərik.

***23.09.2022***